# Məşhur Qərbi azərbaycanlı alimi İrəvan universitetinin şərqşünaslıq fakültəsindən necə çıxarmaq istədilər...

**"İrəvanda izim qaldı" rubrikasında türkologiya elminin görkəmli nümayəndələrindən biri - tənqidçi, ədəbiyyatşünas, professor, Əməkdar Elm Xadimi, Azərbaycan milli yaradıcılıq akademiyasının müxbir üzvü, İrəvanda doğulan və həyatının xeyli hissəsini doğma şəhərində keçirən Mirəli Seyidovdan danışacığıq. O Mirəli Seyidovdan ki, Azərbaycanın çox görkəmli elm xadimi olub və bu gün əsərlərinə saysız istinadlar edilir, fikirləri söykəc yerinə çevrilib.**

M.Seyidov erməni şovinizmini lap gənclik yaşlarında öz həyatında, taleyində görüb. Bildiyimiz qədər, Sovet dövrü olmasına baxmayaraq, Ermənistanda İrəvan Dövlət Universitetinin şərqşünaslıq fakültəsinə azərbaycanlıların qəbul olunmasına qadağa qoysalar da, Mirəli Seyidov erməni dilini mükəmməl bildiyi üçün 1941-ci ildə İrəvan Dövlət Universitetinin şərqşünaslıq fakültəsinin fars dili şöbəsinə daxil olur. Lakin III kursda ikən universitetin rəhbərliyi onu xaric etmək istəyir, amma Mirəli Seyidov 1945-ci ildə buranı bitirməyə müvəffəq olur.

**Mirəli Seyidovu tanıyırıqmı?**

Qərbi Azərbaycanın, tarixi şəhərimiz İrəvanın yetişdirdiyi böyük şəxsiyyətlərdən biri də Mirəli Seyidovdur ki, onun adı xalqımızın şərəf tarixinə yazılıb. Biz Azərbaycan xalqının görkəmli oğul və qızlarını, tarix yaradan işıqlı şəxsiyyətlərini gənc nəslə yaxından tanıtmalıyıq. M.Seyidov haqda çox yazılıb, indən sonra da çox yazılmalıdır, gənclər bu görkəmli Qərbi azərbaycanlını yaxşı tanımalıdır.

**"Qu quşları həyatlarında bircə dəfə oxuyurlar..."**

Mətbuatda yer alan məlumata görə, 1989-cu ildə isə "Yazıçı" nəşriyyatında onun ən iri həcmli kitabı olan "Azərbaycan xalqının soykökünü düşünərkən" adlı əsəri nəşr olunub. Ardınca 1990-cı ildə "Gənclik" nəşriyyatında "Yaz bayramı" kitabı çap olunub.

Mirəli Seyidovun ən son yazdığı kitabı "Qam-şaman və onun qaynaqlarına ümumi baxış"dır. Alim bu kitab üzərində 15 il çalışıb. Kitabın redaktoru Vəli Həbiboğlu son əsərlə bağlı Mirəli Seyidovla danışdığı bir xatirəni kitabın ön sözündə qeyd edib: "Qu quşları həyatlarında bircə dəfə oxuyurlar. Bu da onların ölümqabağı nəğmələri hesab olunur. İndi mən də bu kitabı özümün ölümqabağı nəğməm bilirəm. Elə hesab edirəm ki, bu vaxta qədər yazdığım heç bir əsərim, hətta sənin haqqında danışdığın o iri həcmli soykökü kitabım belə "Qamşaman və onun qaynaqlarına baxış" əsəri ilə müqayisə oluna bilməz. Bu kitab mənim bütün yaradıcılığımın zirvəsidir. Azərbaycan mifologiyaşünaslığında tarixi hadisə hesab olunmağa layiqdir".

Vəli Həbiboğlunun yazdığına görə, qanlı 20 yanvar ərəfəsində Mirəli Seyidov Şəhidlər xiyabanından bir qədər kənarda yerləşən xəstəxanada ürəyindən müalicə olunurdu. Ona görə baş vermiş hadisə haqqında həkimlər ona heç nə demirdi. Lakin heç kim Mirəli Seyidovun hər şeydən xəbəri olduğunu bilmirdi. Bir dəfə onu ziyarətə gedən Vəli Həbiboğluna deyir: "Həkimlər hər şeyi məndən gizlətməyə çalışırlar, amma bilmirlər ki, mən azadlığımız uğrunda axıdılan bu qanları, şəhid övladlarımızı hələ çox-çox il bundan əvvəl gözləyirdim. Azadlığı, xoşbəxtliyi heç kim bizə havayı verməyəcək, hələ bu yolda çox əziyyətlərə, məhrumiyyətlərə qatlaşmalı olacağıq, şəhidlər verəcəyik. Şəhidi olmayan torpaq müqəddəsləşib Vətənə çevrilməz".

Son kitabını 20 yanvar şəhidlərinin ruhuna həsr edən müəllif 15 ildir yazdığı materialları şəhidlərin dəfn günü xəstəxana şəraitində, ağır durumda kitab halına salmağa başlayır, onların qırxı günündən bir neçə gün sonraya tamamlayır, kitabı bitirdikdən sonra Vəli Həbiboğlu ilə birlikdə Şəhidlər Xiyabanını ziyarət edir. Kitab nəşriyyata təqdim edilir, lakin gec çap olunduğundan son kitabını görmək alimə qismət olmur.

Bu fikirlər mətbuatda yer alıb.

**Bəy oğlu, mifoloq, professor...**

M.Seyidovun bioqrafiyasına baxaq: Qeyd olunur ki, Mirəli Mirələkbər oğlu Seyidov 5 may 1918-ci ildə Qərbi Azərbaycanın İrəvan şəhərində bəy ailəsində anadan olub. Burada ibtidai məktəbi, 1938-ci ildə Bakıda S.Ağamalıoğlu adına hidromeliorasiya texnikumunu bitirib. 1938-1944-cü illərdə Ermənistan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan bölməsində təhsil alıb. Eyni zamanda Ermənistan Dövlət Universitetinin Şərq şöbəsində oxuyub. Bu, 1941-1945-ci illəri əhatə edib. Həmin illər "Sovet Ermənistanı" qəzeti redaksiyasında korrektor, ədəbi işçi, gənclər şöbəsinin müdiri, məsul katibin müavini vəzifələrində işləmiş, mətbuat müvəkkili olub. Azərbaycan SSR EA-nın Nizami adına Ədəbiyyat Muzeyinin orta əsrlər Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri (1945-1953), Nizami adına Dil və Ədəbiyyat İnstitutunda orta əsrlər şöbəsində baş elmi işçi (1953-1960), ədəbi əlaqələr şöbəsində baş elmi işçi (1960-1967), şöbə müdiri (1967-1980), Azərbaycan mifologiyası və orta əsrlər folkloru şöbəsinin müdiri (1980-1988), institutun xalq yaradıcılığı şöbəsində aparıcı elmi işçi işləmişdir (1987-ci ildən). 1982-ci ildə Türkiyədə keçirilən IV türkoloji konqresdə Sovet nümayəndə heyətinin tərkibində olmuş, "Azərbaycan mərasimlərində teatr ünsürləri (Yuğ mərasiminə əsasən)" mövzusunda məruzə edib. Yazılanlara görə, ədəbi fəaliyyətə 1941-ci ildə "Sovet Ermənistanı" qəzetində çap etdirdiyi rəy və oçerklərlə başlayıb. Həmin dövrdən mətbuatda vaxtaşırı çıxış edib. 1952-ci ildə "Sayat Novanın yaradıcılığı" mövzusunda namizədlik, 1967-ci ildə "Azərbaycan-erməni ədəbi əlaqələri (ən qədim dövrdən XVIII əsrin sonunadək)" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. "Azərbaycan mifologiyası Azərbaycan xalqının mənşəyini öyrənməkdə bir mənbə kimi" mövzusunda tədqiqat üzərində çalışırdı. Ümumittifaq türkoloji müşavirə və konfranslarda iştirak edib.



**Ermənilərin keçmiş ittifaqda "şovinist" kimi tanıtmağa çalışdığı alim...**

Tədqiqatçı Nəcəf Nəcəfov məqalələrindən birində yazır: "...Sonralar Azərbaycan elminin korifeyi səviyyəsinə yüksəlmiş filologiya elmləri doktoru, mərhum professor Mirəli Seyidov İrəvan Pedaqoji İnstitutunun filologiya fakültəsində təhsil alanda hiss edirdi ki, bu təhsil onda olan güclü, daxili elm yanğınını təmin edə bilmir. Ona görə də erməni dilini mükəmməl bildiyi üçün o, 1941-ci ildə İrəvan Dövlət Universitetinin şərqşünaslıq fakültəsinin fars dili şöbəsinə daxil olur. Lakin III kursda ikən universitetin rəhbərliyi onun gündüz pedaqoji institutda, axşam isə universitetdə təhsil almasından xəbər tutmuşdu. Çox çətinliklə olsa da, Mirəli Seyidov 1945-ci ildə buranı bitirməyə müvəffəq olur. Ermənilər bu istedadlı gəncin tədqiqatçılıq marağını, çox dərinliklərə baş vurmasını elə o zaman hiss etmişdilər. Ona görə də başqa bir azərbaycanlıya belə fürsət verilməsini daha istəmirdilər. Təsadüfi deyildir ki, sonralar İrəvandakı erməni qaynaqlarından ilk dəfə geniş profildə tədqiqatçı kimi istifadə edən azərbaycanlı alim də elə Mirəli Seyidov olmuşdur. Həqiqətən, bu görkəmli alimin ötən əsrin 80-ci illərində apardığı elmi axtarışlar məkrli qonşulara kəskin cavablar verməkdə çox əhəmiyyətli idi. Hətta ermənilər onu bütün ittifaqda şovinist alim kimi tanıtmaq üçün əldən-ayaqdan gedirdilər. O zaman İrəvan Pedaqoji İnstitutunun qonağı olan professor Həmid Araslı Mirəli Seyidovun çox dəyərli tədqiqatları ilə tanış olaraq ona Bakıya köçməsini məsləhət bilir. Deportasiyanın başlanması ərəfəsində İrəvanda daha qala bilməyən M.Seyidov tezliklə Bakıya gəlir. O danışırdı ki, şərqşünaslıqda yalnız ermənilər oxuyurdu və ən millətçi, şovinist ünsürlər də, o cümlədən daşnak ideyalı müəllimlər də oraya toplaşmışdı. Erməni saxtakarlığının ocağı olan bu fakültəni qapalı saxlayırdılar. Çünki gələcək erməni tədqiqatçılarına özlərinə məxsus "iş üsulu", yəni erməni saxtakarlığı da onlara elə burada aşılanırdı. Onlar Matenadarandakı qiymətli əlyazmalarını saf-çürük edir, özlərinə sərf etməyəndə planlı şəkildə onu məhv edir, yandırır, imkan olanda isə "özününküləşdirirdilər". Kim bilir, bizim mədəni tariximizin nə qədər nadir inciləri orada indi də yatıb qalmışdır".

M.Seyidov görkəmli alim olmaqla yanaşı həm də böyük azərbaycanlı, böyük vətəndaş olub. Görkəmli Azərbaycan alimi M.Seyidov 1992-ci il aprelin 26-da Bakıda vəfat edib, II Fəxri xiyabanda dəfn Yaşadığı binanın divarına xatirə lövhəsi vurulub, Yasamal rayonunda adına küçə var.

"İrəvanda izim qaldı" rubrikasında barəsində danışdığımız M.Seyidovun adının doğulduğu İrəvan şəhərində də əbədiləşdiriləcəyinə inamımız tamdır. Qərbi azərbaycanlılar öz yurdlarına döndükdən sonra görkəmli Qərbi azərbaycanlıların ruhları da sevinəcək...

***İradə SARIYEVA***